**UDC:** 32.; 323.; 329.; 353.
**LBC:** 66.62
**MJ №** 338
10.33864/2617-751X.2025.v8.i6.125-136

# THE PHILOSOPHICAL-ETHICAL PRISM OF ONEIRIC EXPERIENCE: ETHICAL DILEMMAS AND INTROSPECTION

**Dunya Shamilova***

**Abstract.** This article dedicated to a multifaceted and interdisciplinary analysis of the oneiric experience, explores the physiological, psychological, philosophical and ethical dimensions of sleep. Sleep is examined physiologically as a process of bodily and nervous system restoration and as a rhythmic alteration of consciousness. From a psychological perspective, it is analyzed as a reflection of subconscious needs and emotional experiences rooted in everyday life. In a philosophical context, sleep is discussed as an event wherein reality is replaced by unreality and the boundaries of human cognition are expanded, addressing various philosophical issues are problematized, including the difference between the forms of existence present within dreams and the entities observed in real life, as well as the reconstruction of the concepts of space, time and essence. The article focuses on ethical issues arising within the context of the oneiric experience, distinguishing the features of decisions made by individuals facing ethical dilemmas in dreams from rational choices made in waking life. The article thus formulates an integrated approach by analyzing the intersections of dreams with problems of existence and cognition, spiritual development and inner experience. Furthermore, the research engages with the dream motif and its ethical dimensions within the mythological worldview that constitutes the foundation of Azerbaijani national philosophy.

**Keywords:** dream, ethical dilemmas, deontology, daimonion, decision-making

---

* Master's student at Baku Business University; Baku, Azerbaijan
E-mail: dunya.shemilova@icloud.com
https://orcid.org/0009-0002-9901-2847

**To cite this article:** Shamilova, D. [2025]. THE PHILOSOPHICAL-ETHICAL PRISM OF ONEIRIC EXPERIENCE: ETHICAL DILEMMAS AND INTROSPECTION. *“Metafizika” journal, 8*(6), pp.125-136.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.125-136

*Received: 29.05.2025*
*Accepted: 30.06.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.; 329.; 353.
**ББК:** 66.62
**MJ №** 338
10.33864/2617-751X.2025.v8.i6.125-136

# ОНЕРИЧЕСКИЙ ОПЫТ В ФИЛОСОФСКО-ЭТИЧЕСКОЙ ПРИЗМЕ: ЭТИЧЕСКИЕ ДИЛЕММЫ И ИНТРОСПЕКЦИЯ

**Дюня Шамилова***

**Абстракт.** В данной статье, посвящённой междисциплинарному анализу онейрического опыта, представлены физиологические, психологические, философские и этические аспекты сна. На физиологическом уровне сон рассматривается как восстановление организма и нервной системы человека, ритмическое изменение сознания, а с психологической точки зрения- как отражение подсознательных потребностей и эмоциональных переживаний, происходящих в повседневной жизни. В философском контексте проблематизируются многие философские вопросы, такие как различие форм существования, существующих во сне, и наблюдаемых в реальной жизни, а также реконструкция понятий пространства, времени и сущности, как событие, в котором реальность заменяется нереальностью и расширяются границы человеческого познания. В статье основное внимание уделено этическим вопросам, возникающим в контексте онейрического опыта, определяются отличительные особенности решений, которые принимает человек, сталкивающийся с этическими дилеммами во сне, по сравнению с рациональными решениями в реальной жизни. Формируется интегрированный подход, анализируя взаимосвязи с проблемами существования и познания, духовного развития и внутреннего опыта. Также в исследование включается мотив сна и его этические аспекты в мифологическом мировоззрении, которое составляет основу азербайджанской национальной философии.

**Ключевые слова:** сон, этические дилеммы, деонтология, даймонион, принятие решений

---

* Магистрант Бакинского Университета Бизнеса; Баку, Азербайджан
E-mail: dunya.shemilova@icloud.com
https://orcid.org/0009-0002-9901-2847

**Цитировать статью:** Шамилова, Д. [2025]. ОНЕРИЧЕСКИЙ ОПЫТ В ФИЛОСОФСКО-ЭТИЧЕСКОЙ ПРИЗМЕ: ЭТИЧЕСКИЕ ДИЛЕММЫ И ИНТРОСПЕКЦИЯ. *Журнал «Metafizika», 8(6),* с.125-136.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.125-136

***История статьи:***
*Статья поступила в редакцию: 29.05.2025*
*Отправлена на доработку: 30.06.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 329.; 353.
**KBT:** 66.62
**MJ №** 338
10.33864/2617-751X.2025.v8.i6.125-136

# ONİRİK TƏCRÜBƏ FƏLSƏFİ-ETİK PRİZMADA: ETİK DİLEMMALAR VƏ İNTROSPEKSİYA

**Dünya Şəmilova***

**Abstrakt.** Onirik təcrübənin çoxşaxəli və interdisiplinar təhlilinə həsr olunmuş bu məqalədə yuxunun fizioloji, psixoloji, fəlsəfi və etik prizmaları təqdim edilir. Yuxu fizioloji səviyyədə insan bədəni və sinir sisteminin bərpası, şüurun ritmik dəyişikliyi, psixoloji aspektdən yanaşıldıqda isə şüuraltı ehtiyacları, gündəlik həyatda baş verən emosional təcrübələrin əksi kimi təhlil edilir. Fəlsəfi kontekstdə reallığın qeyri-reallıqla əvəzləndiyi, insan idrakının sərhədlərinin genişləndiyi bir hadisə kimi yuxu daxilində mövcud olan varlıq formalarının real həyatda müşahidə olunan varlıqlardan fərqi, məkan, zaman və mahiyyət anlayışlarının yenidən qurulması kimi bir çox fəlsəfi məsələləri problematizasiya edilir. Məqalədə əsas diqqət onirik təcrübə fonunda formalaşan etik məsələlərə yönəldilmiş, yuxuda etik dilemmalarla qarşılaşan insanın verdiyi qərarların real həyatın rasional seçimlərindən fərqli xüsusiyyətləri müəyyənləşdirilir. Yuxunun varlıq və idrak problemləri, mənəvi inkişaf və daxili təcrübələrlə kəsişdiyi sahələri təhlil etməklə inteqral yanaşma formalaşdırır. Həmçinin Azərbaycan milli fəlsəfəsinin özəyini təşkil edən mifoloji dünyagörüşündə yuxu motivi və onun etik aspektləri də tədqiqata cəlb edilir.

**Açar sözlər:** yuxu, etik dilemmalar, deontologiya, daimonion, qərar vermə

* AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı; Bakı, Azərbaycan
E-mail: dunya.shemilova@icloud.com
https://orcid.org/0009-0002-9901-2847

**Məqaləyə istinad:** Şəmilova, D. [2025] ONİRİK TƏCRÜBƏ FƏLSƏFİ-ETİK PRİZMADA: ETİK DİLEMMALAR VƏ İNTROSPEKSİYA. *“Metafizika” jurnalı, 8*(6), səh.125-136.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.125-136

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 29.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 30.06.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Yuxular insan şüuraltı dünyasının sehirli aynası olmaqla yanaşı, onirik təcrübədə formalaşan etik dilemmalarda verilən qərarlar fonunda insanın daxili əxlaqi ölçülərini sınadığı təcrübə mühitidir. Bu etik qərarlar insanın həm özünə dair düşüncələrini, həm də onu əhatə edən ətraf mühitlə münasibətlərini təmsil etdiyi üçün onların necə formalaşdıqlarını, fəlsəfi-etik aspektlərini, insan həyat və fəaliyyətinə təsirini müəyyənləşdirmək zəruri hal alır. Araşdırmanın əsas istiqaməti yuxuda qəbul edilən etik qərarların epistemoloji statusunu, biliyə çevrilib-çevrilmədiyini, insan həyat və fəaliyyəti üzərindəki təsir dairəsini müəyyənləşdirməkdir Məqalədə əsas diqqət onirik təcrübə fonunda formalaşan etik məsələlərə, yuxuda etik dilemmalarla qarşılaşan insanın verdiyi qərarların real həyatın rasional seçimlərindən fərqli xüsusiyyətləri müəyyənləşdirməyə, introspeksiya üsulunun bu kimi məqamların şərhindəki əhəmiyyətini vurğulamağa yönəldilmişdir.

Məqalənin onirik təcrübənin tədqiqində kompleks və interdisiplinar mahiyyətini nəzərə alaraq müxtəlif elmi metodların inteqrasiyasından istifadə edilmişdir. Yuxu fenomeninin insan şüurunda təzahürünü araşdırmaq məqsədilə fenomenoloji metoddan istifadə olunmuşdur. Mifoloji dünyagörüşü və ədəbi-fəlsəfi mənbələrdə yuxu motivinin mənalandırılması və etik aspektlərinin müəyyənləşdirilməsi üçün hermenevtik metod tətbiq edilmişdir. Yuxuda formalaşan etik dilemmaların təhlilində analitik-fəlsəfi yanaşma əsas götürülmüş, qərarvermə prosesi məntiqi və əxlaqi baxımdan dəyərləndirilmişdir. Müxtəlif fəlsəfi sistemlərdə yuxu anlayışının necə interpretasiya edildiyini müəyyənləşdirmək məqsədilə komperativ (müqayisəli) metoddan istifadə edilmişdir. Yuxunun psixoloji və şüuraltı səviyyədə izahı üçün psixoanalitik yanaşma (xüsusilə Freyd və Yunqun nəzəriyyələri kontekstində) nəzərdən keçirilmişdir.

Bu metodlar inteqrativ şəkildə tədbiq edilərəl onirik təcrübənin fizioloji, psixoloji, fəlsəfi və etik aspektlərinin qarşılıqlı əlaqəsi üzə çıxarılmışdır. Bu yanaşma tədqiqatın interdisiplinar xaraakterini təmin etməklə yanaşı yuxunun hərdi, həmçinin mədəni-ontoloji dəyərlərinin dərinliklərini aşkara çıxarmağa imkan verir.

## 2.Onirik təcrübə interdisiplinar təhlildə

Fəlsəfənin inkişafının müxtəlif mərhələlərində yuxu məşhur filosoflar tərəfindən fərqli formada şərh edilmiş, adətən insan daxili dünyasının yansıması olaraq qəbul edilmişdir. Məşhur yunan filosof Heraklit yuxu haqqında deyirdi: "*Oyanıq insanlar üçün tək bir dünya vardır. Yuxuda olanların isə hər birinin ayrı bir aləmi var və onun içində hey fırlanırlar*" (Heraclitus, 2009). İnsanlar üçün real aləm sabit, ortaq və obyektivdir, lakin yuxu prosesində insan ruhu bir-birindən fərqli və dəyişkən aləmlərdə səfər edir. Oyanıq insanlar eyni gerçəkliyi, ortaq dünyanı: eyni torpağı, eyni günəşi,

eyni havanı paylaşır, lakin yuxu prosesində bu ortaq dünyadan təcrid olunmuş şəkildə, fərdi səyahət edir.

Platon “Mağara alleqoriyası” adlı əsərində yuxunu xarici dünyanın daxili aynası, gerçəkliyin kölgəsi kimi şərh edir [Plato, 2000, Book VII]. “De somno et vigilia” əsərində yuxunu təbii və bioloji fenomen adlandıran Aristotel eyni canlı varlıq daxilində mövcud olan yuxu və oyaqlıq qarşıdurmasından bəhs edərək yuxunu ruh və bədənin birgə fəaliyyətinin məhsulu adlandırır. Filosofa görə, təbiətdə paradokslarının bir-birini tamamlaması harmoniya yaratdığı kimi yuxu və oyaqlıq da bir-birini istisna edir. Aristotel yuxunu zəiflik və orqanizmin fəaliyyət sərhədlərini aşan məfhum olaraq izah edir. Zamanla çətinləşən prosesə çevrildiyi üçün insanın müəyyən bir duyğunu uzunmüddət davam etdirməsi mümkün deyildir. Bu, insanın yaşam gücünü zəiflədir, fiziki və zehni enerjinin tükənməsini sürətləndirir. İnsan fəaliyyətinin yuxu ilə bərabər sona çatdığını vurğulayan Aristotel yuxunu yenidən oyanmaq üçün vasitə adlandırır. Beləcə, insan yatarkən ruh bədəndən tam ayrılmır, hiss orqanları dayanır, amma həyat qüvvəsi qalır [Aristotle, 2006]. Əsərdə yuxu prosesində gələcək motivlərinin təzahürü mövzusu da araşdırılır və bu cür proseslər yalnız insanla deyil, həm də daimonik qüvvələrin təsiri ilə əlaqələndirilir.

Yuxu prosesində məhdudlaşdırılmış və hərəkətsizləşdirilmiş bədən enerji depolayır. Bu amil yuxunun fizioloji olaraq da mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Fizioloji olaraq tsiklik hadisə olan yuxu non-REM (NREM) və REM (Rapid Eye Movement) adlı iki əsas fazadan ibarətdir. Kandel və həmkarları REM və non-REm yuxusunun beyində spesifik neyron dövrləri və neyrotransmitter balansı vasitəsilə tənzimləndiyini vurğulayır, REM zamanı asetilxolinin artdığını, serotonin və norepinefrinin isə azaldığını qeyd edirlər [Kandel, Koester, Mack, & Siegelbaum, 2021].

Hüceyrələr, immunitet sistemi və orqanizmin yeniləndiyi non-REM üç mərhələli olub 90 dəqiqə davam edərək yuxunun 75-80%-ni təşkil edir. Birinci mərhələ oyanıqlıq və yuxu arasında keçid dövrü olduğu üçün asanlıqla oyanmaq mümkündür. İkinci mərhələdə bədənin temperaturu düşür, ürək döyüntüləri və tənəffüs zəifləyir. Üçüncü mərhələdə isə bədənin özünü fiziki olaraq bərpa etməsi prosesi, hormonların ifrazı, toxumaların yenilənməsi baş verir [Goldstein & Walker, 2014].

REM mərhələsi isə yuxunun 20-25%-ni təşkil etməsinə baxmayaraq, sürətli göz hərəkətləri, göz və tənəffüs əzələləri istisna olmaqla bütün striated əzələlərinin tam iflic olması ilə müşahidə olunur. REM mərhələsi yuxugörmə aktının baş verdiyi əsas fazadır. Həmçinin Non-REM mərhələsində beyin dalğaları zəifləyərək delta dalğaları ilə əvəz olunsa da, REM mərhələsində beyin ən çox enerjini istifadə edir. Lakin bu aktivlik oyaq beyin aktivliyindən tamamilə fərqlənir. Gündəlik qəbul edilən yeni informasiyaların qısamüddətli

yaddaşdan uzunmüddətli yaddaşa köçürülməsi REM mərhələsində baş verdiyi üçün keçmiş təcrübədə olan nüansların yuxuda əksi müəyyən qədər müşahidə oluna bilər [Kryger, 2021].

İslam dininin mənbələrində yuxunun fazaları haqqında verilən məlumatlar bu elmi biliklərlə yaxından səsləşməkdədir. İslam fəlsəfəsi və elmi ənənəsinin inkişafında mühüm rola malik şəxsiyyət kimi məşhurlaşan, həm teoloji düşüncənin, həm də təbiət elmlərinin tədrisində İbn Sina, Cuveyni kimi şərqin bir çox tanınmış filosoflarına təlim verən Cəfər ibn Məhəmməd əl-Sadiq yuxuların 3 növündən söz açır: 1.İlahi müjdəni ehtiva edən yuxular; 2.Nəfsani (yalan) yuxular; 3.Pərişan yuxular. "*Yalan yuxular gecənin əvvəlində görülür və həmin zaman kəsiyi iblisin səltənət zamanı olduğu üçün bu yuxu xəyalları ehtiva edir. Nəfsi istəkləri əks etdirən bu yuxular həm də insanı cilvələndirir. Lakin düzgün yuxu gecənin axır üçdə birində, mələklərin nazil olduğu zamanda görülür*". Yuxunun iki hissəsindən bəhs edən bu fikir müasir REM və Non-REM fazalarının xüsusiyyətləri ilə səsləşməkdədir. Xəyal və nəfsə bağlı istək və arzuları ehtiva edən yuxular daha az simvolik məna daşıyan, daha çox bədənin yenilənmə ehtiyaclarını qarşılayan və az təhlil edilə bilən Non-REM mərhələsini, düzgün yuxu kimi təqdim edilmiş ikinci növ yuxular isə beynin xüsusi aktivlik sərgilədiyi, dərin təfəkkür və mənəvi inkişafı stimullaşdıran, ən canlı və mənalı hissəsini – REM mərhələsini simvolizə edir.

Məşhur filosof Kantın fikrincə, insan həqiqəti şüur və təcrübələr vasitəsilə dərk edir. Nəzərə alsaq ki, yuxu prosesində insan ağıl və ruhu bədən daxilindəki əlaqəsini itirir, şüur qapanır, insan reallıqdan uzaqlaşır və təcrübələr real olmayan aləmdə yaşandığı üçün yuxu prosesində təbii görünməyən, real həyat üçün mümkünsüz hadisələrin baş verməsi mümkün hala gəlir. Bundan əlavə, beyində qərar qəbulu və etik mülahizələrin təmsil edildiyi prefrontal korteks yuxu prosesində fəaliyyət dəyişikliyi müşahidə edilən əsas hissələrdən birdir. Lakin yuxu halında əzələlərin boşalması ilə bədən hərəkətsizləşir, serotonin və noradrenalin sıfırlanması ilə xatırlama və problem həll etmə kimi şüurlu fəaliyyətlər dayanır. Bu halda xatırlama aktı dayandığı üçün yuxuların sadəcə günlük və keçmiş təcrübədən, daxili düşüncə və istəklərdən doğan duyğuları özündə əks etdirməsi fikri şübhə doğurur. Beyin etik mülahizələrlə bağlı düşünmə və problem həll etmə aktını icra edə bilmədiyi üçün yuxu prosesində etik dilemmalarla qarşılan insanın şüurlu etik seçimlər etməsi mümkünsüzləşir.

Psixoloji aspektə əsasən yuxu insan ruhunun və psixoloji sağlamlığının müxtəlif simvol və təzahürlərlə yansıması kimi qəbul edilir. "Yuxuların yozumu" adlı kitabında məşhur psixonalist Zigmund Freyd yuxuları sıxışdırılmış arzu və istəklərin təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşdiyi, şüurumuzda mövcud olan həyatımız olaraq təqdim edərək heç də mənasız proses olmadığını bildirir [Freyd, 2014]. Freydin görüşlərinə yaxın

düşüncə sərgiləyən Murakami və Karl Qustav Yunq da yuxuların gələcək haqqında olmadığını, keçmiş təcrübəyə əsaslandığını bildirmişdir.

Karl Popperin fikrincə elmi informasiya ya təsdiq, ya da inkar oluna bilən xarakterə malik olmalıdır. Bu səbəblədir ki, mürəkkəb quruluşa malik olan yuxu sadəcə insanın fərdi arzu və düşüncələri ilə bağlı olmadığından heç vaxt təcrübə edilməmiş hadisələrlə bağlı olan yuxuları keçmiş duyğularla əlaqələndirmək şübhə doğurur. Aristotel “De somno et vigilia” əsərində yuxu görmə və oyaq qalmaq fenomenlərinin ancaq hiss etmə qabiliyyəti olan varlıqlara aid olduğunu, yalnız insanlar və heyvanların yuxu görə bildiyini, bitkilərin bu prosesdə iştirak etmədiyini vurğulayır. Belə ki, oyaq insan emosional təcrübə yaşasa da, yuxu prosesində hisslər deaktiv edildiyi üçün duyğusal təcrübə yaşamaq mümkün olmur. Beləcə yuxu prosesində qəbul edilən qərarlara duyğuların təsiri mümkünsüzləşir.

Aristotelə görə biz dünyanı sadəcə gözlə görüb, qulaqla eşitməklə dərk etmirik. İnsan duyğu üzvlərinin qəbul edə bilmədiyi bilikləri dərk edən və bütün hisslərin əlaqəsini təmin edən ortaq güc mənbəyi – “ortaq hiss” (koine aisthesis) vardır [Aristotel, 2011]. Sokrat fəlsəfi görüşlərində bu “ortaq hiss” fenomeni hisslər və ağıl arasında olan güc, yəni daimonion (ilahi bir səs) adlandırılmışdır [Plato, 1997]. Daimonion insan varoluşunun rasional və instinktiv qatları arasında vasitəçi funksiya daşıyan, onu ilahi qaynaqlarla birləşdirən, həm də daxili transformasiyaya təşviq edən metafizik güc olub fərdin daxilindəki əxlaqi yönəltməni, intuisiya və yaradıcı impulsları təmsil edir. İnsanın mənəvi bütövlüyünü və daxili istiqamətini qorumaqla bərabər öz varlığının ziddiyyətləri ilə üz-üzə qoyaraq sınağa çəkən, özünü aşma yolunda təhrik edən daimonion “daxili səs”, “vicdan”, müasir dövr psixoloji-fəlsəfi dünyagörüşündə insan dərinliklərində fəliyyət göstərən “mənəvi kompas” rolunu ifa edir.

Müasir elmi konsepsiyalarda bu güc mənbəyinin beyində olduğu qənaətinə gəlinməsinə baxmayaraq, Aristotel “ortaq hissin” ürəkdə yerləşdiyini bildirmişdir. XX əsr neyrokardiologiya sahəsində J.Andrew Armour və digər tədqiqatçılar tərəfindən aparılmış araşdırmalarda “ürəyin neyroloji sistemi”, “ürəyin beyni” anlayışları formlaşmışdır. Bu ideyalar ürəyin sinir sistemi ilə kompleks və iki istiqamətli, qarşılıqlı əlaqədə iştirak etdiyini müəyyənləşdirərək klassik ürək-ağıl ikililiyinə dair təsəvvürlər haqqında yenidən düşünməyə səbəb yaratmışdır. Bu tədqiqatlarda ürəyin səthində yerləşən və struktur baxımından beyinin kortikal neyronlarına bənzər xüsusiyyətlərə malik olan, lakin tamamilə müstəqil şəkildə fəaliyyət göstərən təqribən 40.000 neyrondan ibarət neyroloji şəbəkəsinin kəşfi Aristotelin fikirlərini dəstəkləyir.

Beləliklə, yuxuların və insanın yuxuda baş verən proseslərə verdiyi reaksiyaların yaranmasında duyğu orqanlarının fəaliyyətinə əsaslandığı üçün

bizə məlum olan nə rasional, nə də empirik şüurun rolu vardır. Bu prosesin mərkəzində müxtəlif duyumları vahid təcrübədə birləşdirən və formalaşdıran daxili idrak və duyum gücü dayanmaqdadır.

**3.Azərbaycan fəlsəfəsinin mifoloji təməllərində yuxu motivi**

Bəşəri təcrübədə yuxu mənəvi ilham, ruhi inkişaf vasitəsi kimi dəyərləndirilmişdir. Mifoloji və fəlsəfi ənənədə yuxu fərdin həyat yolunu istiqamətləndirir, daxili gücünü və potensialını kəşf etməsinə yardım edir. Bəzi yuxular mənəvi təcrübə və ilham mənbəyi kimi qəbul edilərək yuxunu görən şəxsin həyatını daha dərin və məqsədli hala gətirməsinə səbəb olur.

Azərbaycan fəlsəfəsinin özəyini təşkil edən milli mifoloji dünyagörüşündə də yuxu yalnız fiziki təcrübə deyil, həm də insanın ruhi inkişafını təşviq edən xüsusi vasitə kimi qiymətləndirilir: "*Türk xalqlarının mədəniyyətində yuxularla yaşam tərzi, həyat üslubu, gələcəklə bağlı gözləntilər və həyata baxış arasında mühüm əlaqə mövcuddur. Elə yuxular da vardır ki, əsrlər boyu davam edəcək bir macəra və ya səyahətin başlanğıcını müəyyən edən xarakterə malikdir. Buna görədir ki, qədim türk atalar sözlərindən birində "düş olmadan iş olmaz" (yuxusuz iş görülməz) deyimi sıx istifadə edilir*" [Kurt & Kurt, 2015, s.241].

"Yaradılış", "Oğuz Xaqan", "Şu", "Alp Ər Tunqa", "Manas", "Ərgənəkon", "Bozqurd", "Maaday Qara", "Törəyiş", "Köç", "Dədə Qorqud" kimi dastanlarda yuxu ruhi ayıqlıq, mənəvi təkamül, idrakın dərinləşməsi, əxlaqi kamillik xüsusiyyətləinin istiqamətverici qüvvəsi kimi təqdim edilir. Burada yuxu iki əsas vəzifəni icra edir: həyat yolunu müəyyənləşdirən istiqamətverici qüvvə; çətinliklə qarşılaşan şəxsə motivasiya və ilhamverici mənbə.

İstiqamətverici rola sahib yuxular insanın düşüncə və davranışlarını tənzimləyir, daha yüksək həyat fəlsəfəsinə yönləndirir, gələcəklə bağlı motivləri müəyyənləşdirərək işarələr verir. Aristotel düşünürdü ki, insan yuxu prosesində qərarlarını özü vermədiyi üçün yalnız yuxudan oyandıqdan sonra hərəkət azadlığı qazanır. Filosofun bu görüşləri yuxuda gördüklərimizi özümüzün səhnələşdirmədiyimizi göstərir. Mifoloji təcrübədə onirik təcrübənin insanın varlıq və məqsəd axtarışında yön verici, gələcəyə dair yol açıcı rola sahib olması bu fikirlə səsləşir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında Qazan xanın düşmənin yurdunu talan edəcəyini öncədən yuxusunda görməsi yuxuların kollektiv tale yüklü, yalnız fərdi deyil, milli səviyyədə gücün və əzmin təcəssümü və tarixə yönəlmiş simvolik mesajları ehtiva etdiyini göstərir [Gökyay, 2006, s.208].

"Köç" dastanında Bögü Kağanın 7 il, 6 ay, 20 gün hər gecə yuxusunda eyni qızı görməsi və həmin qızın Kağana onun dünyanın hökmdarı olacağını bildirməsi, vaxtın tamamında kağan və vəzirinin eyni yuxunu görməsi, ağ libaslı bir qoca Yada daşını Kağana təqdim edərək onun dünyanı idarə edəcəyini və bu daşla türkləri birləşdirəcəyini söyləməsi fonunda Kağanın

ordusunu toplaması, qərbə yürüş etməsi geniş fəthlər etməsi yuxuların gələcəyə dair xəbərverici xarakter daşımasından xəbər verir [Sepetçioğlu, 1995, s.126-131]. Dövlətin sərhədlərinin genişləndirilməsində motivasiya və istiqamətverici qüvvə rolu oynayan bu yuxular Kağanın siyasi fəaliyyətində dayaq nöqtəsinə çevrilir.

Motivasiya edici funksiya daşıyan yuxular isə insanın daxili potensialını kəşf etməyə yönəlir, şəxsi inkişafı stimullaşdırır. Məsələn, “Oğuz Xaqan” dastanında yuxu gələcək haqqında proqnoz, xəbərdarlıq olaraq şərh edilir.

Bir yay, üç ox idi gördüyü bu düş,
Yay altundan idi, oxlarsa gümüş.
Gördükü yay şərqdən qərbə uzanıb,
Oxlarsa güneyə tərəf tuşlanıb [Bayramov, 2017, s.88].

Türk dünyasının uğurları, qüdrət və əzəməti ilə bağlı simvolları əks etdirən bu yuxuda Türk xalqının gələcəkdə sahib olacağı güc öncədən xəbər verilir. Sonrakı dövrlərdə də Azərbaycan xalqının türkçülük ənənələrini, İslami dünyagörüşünü və mifoloji kökləri qoruyan yaradıcılıq ənənələri davam etdirilmiş, “Abbas və Gülgəz”, “Seydi və Pəri”, “Müğüm şah”, “Abdullah və Cahan”, “Məsim və Diləfruz”, “Səyyad və Səadət” kimi dastanlarda gələcəklə bağlı motivlərin yuxu prosesində verilməsi təqdim edilmişdir. “Bu tipli yaradıcılıq nümunələrində yuxu motivi ilə qəhrəmanın sənətkar şəxsiyyəti müəyyənləşir. Yuxu görən şəxs yuxusunda badə içir, buta alır və ona nişan verilən şəxsə aşiq olur. Oyandıqda ilk şeirini söyləyər və beləcə sadə insandan sənətkar şəxsiyyətə keçmiş olar” [Kaya, 2007, s.621].

**4.Rasional və onirik qərarların etik fərqləri**

Yuxuda yanlış və doğrunu ayırmaq, real həyatda ideal həll yollarını düşünsək də, yuxu prosesində bizdən asılı olmadan formalaşan qərarlar fonunda təmsil olunan etik dilemmalar şəxsin daxili və əxlaqi dünyasındakı mübarizəni əks etdirir. Yuxu prosesində etik dilemmalarla qarşılaşan şəxsin qərarları isə real həyatdakı seçimlərlə müqayisədə daha müstəqil və azad seçimləri əhatə edir:

1. Onirik təcrübənin etik seçimləri mütləq doğru, mütləq yanlış olaraq nəticələnmədiyi üçün həyati əhəmiyyət daşımır və etik nəticələrdən azaddır. Buna görə də vicdan və qorxu hissinin azalması ilə real həyatda yanlış seçimlərin nəticəsi kimi yaranan peşmanlıq, utanc, qorxu kimi emosiyalar zəifləyir, insan azad, bəzən “mənasız” seçimlər edir.
2. Real həyatda sosial, mənəvi və hüquqi sərhədlər şüuraltı impulsları idarə etməyi tələb edir. Yuxuda tabulaşmış etik və sosial normalar, əxlaq qaydalarının gündəlik həyatdakı aktiv təsiri azalır.
3. Yuxuda hadisələr məntiqi axarla davam etmədiyi üçün ardıcıllıq, səbəb-nəticə kimi əlaqələr pozulur. Bu isə reallıqda mövcud olmayan seçimlər etmək üçün azad atmosfer formalaşdırır.

4. Yuxu prosesində insan etik məsuliyyətlərini daşımır, “self-identity dissolution” (öz kimliyinin dağılması) anlayışı zəifləyir, beləcə normal şəxsiyyət sərhədləri itir. Bu səbəblə fiziki qanunlar (cazibə qüvvəsi, zaman, məkan və s.) fonunda formalaşan məhdudiyyətlər aradan qalxır: insan uça, başqa varlığa çevrilə, qeyri-mümkün hadisələri sərbəst icra edə bilir.

Yuxuda baş verən proseslərin təhlili və şərhi üçün klassik psixologiyada subyektiv təcrübə, fərdin daxili dünyası və psixi durumunu (düşüncə, duyğu, hiss və arzular) birbaşa müşahidə və təhlil edən introspektiv analiz (nə etdik, necə hiss etdik, niyə peşmanlıq duyduq və s.) əsas metdolardan biri hesab edilir. William James özünün “*The Principles of Psychology*” adlı kitabında introspeksiyanı şüur axının birbaşa müşahidəçisi kimi təqdim edərək bəzi psixi hadisələrin yalnız introspektiv yolla dərkinin mümkün olduğunu bildirmişdir [William, 1890]. Həmçinin yuxular daxili təcrübə olub xarici müşahidəyə qapalı olduğundan yuxu prosesindəki seçimlərin təbiətini introspektiv üsulla araşdırmaq daha obyektiv nəticələr qazandıra bilər.

**5.Nəticə**

Onirik təcrübənin fəlsəfi və etik aspektdən təhlili göstərir ki, yuxu prosesində rasional düşünmə və məntiqi dəyərləndirmə kimi funksiyalar aktiv olmasa da, alternativ bir forma kimi idrak fəaliyyətinə davam edir. Bu isə şüurun yalnız məntiqi strukturlarda deyil, qeyri-rasional və ya intuitiv yollarla da özünü ifadə edə bildiyini göstərir. Yuxu prosesində insanın gündəlik həyatdakı sosial, hüquqi, mədəni və digər sosial normativlərdən azad şəkildə seçim etməsi etik dəyərlərinin daha saf və təhrif olunmamış formada üzə çıxmasına imkan yaradır. Bu baxımdan yuxuda üzə çıxan etik dilemmaların təhlili insanın mənəvi strukturunu anlamaq üçün daha obyektiv müstəvi təqdim edir.

Nəzərə alsaq ki, bütün yuxular dərk etmə prosesində iştirak etmir, bəzən məntiqi ardıcıllıqdan uzaq və simvolik məzmun daşıması yuxuların sirli və mistik xüsusiyyətlərinin dərkini daha da çətinləşdirir. Yuxunun ikili təbiəti, yəni həm idraka açılan sirli qapı, həm də idrak prosesində çaşdırıcı xüsusiyyətlərə malik yolayırıcı olması onun fəlsəfi mahiyyətini daha da artırır. Bütün bu xüsusiyyətlərin fonunda Azərbaycan milli fəlsəfi təfəkkürünün ilkin mərhələsi olaraq dəyərləndirə biləcəyimiz mifoloji dünyagörüşündə yuxuya verilən xüsusi dəyər və məna diqqətəlayiqdir. Yuxunun insan və Tanrı, insan və kainat arasında vasitəçi rolunda çıxış etməsi ilkin düşüncə sistemində ontoloji və etik mənalar daşımasına şərait yaratmışdır. Nəticə etibarilə yuxu təkcə fizioloji və ya psixoloji proses olmayıb eyni zamanda idrakın, etik özünüifadə və özünüqiymətləndirmənin, mədəni-mifoloji təxəyyülün birləşdiyi çoxölçülü fəlsəfi təcrübədir.

## ƏDƏBİYYAT

**1.** Aristotel. (2011). *Ruh haqqında (De anima)* (F. Qasımzadə, Trans.). Bakı: Şərq-Qərb.

2. Aristotle. (2006). *On sleep and waking* . In J. Barnes (Ed.), *Complete works of Aristotle: The revised Oxford translation* (Vol. 1, pp. 737–744). Princeton University Press.
3. Bayramov, M. M. (2017). *Türkün dastanı*. Bakı: Elm və təhsil.
4. Freyd, Z. (2014). *Yuxuların yozumu*. Bakı: Qanun nəşriyyatı.
5. Goldstein, A. N., & Walker, M. P. (2014). The role of sleep in emotional brain function. *Annual Review of Clinical Psychology, 10,* 649–674.
6. Gökyay, O. (2001). *Dedem Korkud’un kitabı*. İstanbul.
7. Gündüz, E. (2009). Divan ve halk edebiyatı sanatçılarına ilham kaynağı olan rüya. *Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi.*
8. Heraclitus. (2001). *Heraclitus: The cosmic fragments* (G. S. Kirk, Trans.). Cambridge University Press. (Fragment B89).
9. Heraclitus. (2009). In D. W. Graham (Ed.), *The texts of early Greek philosophy: The complete fragments and selected testimonies of the major Presocratics* (Vol. 1, pp. 113–115). Cambridge University Press.
10. James, W. (1890). *The principles of psychology* (Vols. 1–2). New York: Henry Holt and Company.
11. Imam Ja’far al-Sadiq (a’). (2014). *Tawheed al Mufaddal* (S. J. R. Kazmi, Trans.; 150 p.). Wilayat Mission Publication. ISBN: 9780615947037
12. Kandel, E. R., Schwartz, J. H., Jessell, T. M., Siegelbaum, S. A., & Hudspeth, A. J. (2013). *Principles of neural science* (5th ed.). McGraw-Hill Education.
13. Kurt, S., & Kurt, B. (2015). Türk devlet kültüründe rüya. *Uşak Üniversitesi Sosyal Bilimler Dergisi, 8*(2), 239–252.
14. Kryger, M. H., Roth, T., & Dement, W. C. (2021). *Principles and practise of sleep medicine* (7th ed.). Elsevier.
15. Plato. (1997). Apology (G. M. A. Grube, Trans.; rev. by J. M. Cooper). In J. M. Cooper (Ed.), *Plato complete works* (pp. 17–36). Indianapolis, IN: Hackett Publishing Company.
16. Plato. (2000). *Republic* (T. Griffith, Trans.). Cambridge University Press.
17. Sepetçioğlu, N. (1995). *Karşılaştırmalı Türk destanları*. İrfan Yayınevi.
18. Snyder, A. Z., & Raichle, M. E. (2007). A default mode of brain function. *Nature, 426*(6966), 646–650.
19. Ögel, B. (1993). *Türk mitolojisi*. Türk Tarih Kurumu Basımevi.

## REFERENCES

1. Aristotel. (2011). *On the soul (De anima)* (F. Qasimzade, Trans.). Baku: Sharq-Qarb. (in Azerbaijani)
2. Aristotle. (2006). *On sleep and waking*. In J. Barnes (Ed.), *Complete works of Aristotle: The revised Oxford translation* (Vol. 1, pp. 737–744). Princeton University Press. (in English)

**3.** Bayramov, M. M. (2017). *The epic of the Turk*. Baku: Elm ve Tehsil. (in Azerbaijani)

**4.** Freyd, Z. (2014). *Interpretation of dreams*. Baku: Qanun Nashriyyati. (in Azerbaijani)

**5.** Goldstein, A. N., & Walker, M. P. (2014). The role of sleep in emotional brain function. *Annual Review of Clinical Psychology, 10*, 649–674. (in English)

**6.** Gokyay, O. (2001). *The book of my grandfather Korkud*. Istanbul. (in Turkish)

**7.** Gunduz, E. (2009). Dreams as inspiration for divan and folk literature artists. *Selcuk University Journal of Social Sciences*. (in Turkish)

**8.** Heraclitus. (2001). *Heraclitus: The cosmic fragments* (G. S. Kirk, Trans.). Cambridge University Press. (Fragment B89) (in English)

**9.** Heraclitus. (2009). In D. W. Graham (Ed.), *The texts of early Greek philosophy: The complete fragments and selected testimonies of the major Presocratics* (Vol.1, 113–115). Cambridge University Press. (in English)

**10.** James, W. (1890). *The principles of psychology* (Vols. 1–2). New York: Henry Holt and Company. (in English)

**11.** Imam Ja’far al-Sadiq (a’). (2014). *Tawheed al Mufaddal* (S. J. R. Kazmi, Trans.; 150 p.). Wilayat Mission Publication. ISBN: 9780615947037 (in Arabic)

**12.** Kandel, E. R., Schwartz, J. H., Jessell, T. M., Siegelbaum, S. A., & Hudspeth, A. J. (2013). *Principles of neural science* (5th ed.). McGraw-Hill Education. (in English)

**13.** Kurt, S., & Kurt, B. (2015). Dream in Turkish state culture. *Usak University Journal of Social Sciences, 8*(2), 239–252. (in Turkish)

**14.** Kryger, M. H., Roth, T., & Dement, W. C. (2021). *Principles and practice of sleep medicine* (7th ed.). Elsevier. (in English)

**15.** Plato. (1997). Apology (G. M. A. Grube, Trans.; rev. by J. M. Cooper). In J. M. Cooper (Ed.), *Plato complete works* (pp. 17–36). Indianapolis, IN: Hackett Publishing Company. (in English)

**16.** Plato. (2000). *Republic* (T. Griffith, Trans.). Cambridge University Press. (in English)

**17.** Sepetcioglu, N. (1995). *Comparative Turkish epics*. Irfan Yayinevi. (in Turkish)

**18.** Snyder, A. Z., & Raichle, M. E. (2007). A default mode of brain function. *Nature, 426*(6966), 646–650. (in English)

**19.** Ogel, B. (1993). *Turkish mythology*. Turkish Historical Society Press. (in Turkish)